**Abdullayev M.K.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.60.8-29**

# The problem of considering public and private interests in the limitation of civil rights in the Republic of Azerbaijan

**Abstract:** Limitation human rights and freedoms, determining its validity is one of the most important problems of any state. Taking public and private interests into account while limitating human rights and freedoms is one of the most important elements of any democratic society, legal state. Public interest can be reflected and consolidated in branches of both public and private law. Interest in law is its most important law-making and law-implementing factor. Directly public interest is revealed in the state will. The interests of society as a whole are shaped solely by social and economic conditions and their corresponding needs. The main criterion for determining the limits of satisfaction of the interests of a particular person are the interests of other persons, including public and state ones.

The experience of the European Court is richer when considering public and private interests in limitating human rights. In case of deprivation of property, the legislation of Azerbaijan is guided by the principles of "social justice" and "efficient use of land", enshrined in the basic law of the country, as well as in the European Convention. One of the main requirements of the European Convention in case of deprivation of property is the payment of fair compensation, only in this case it is possible to maintain a balance between public and private interests.

**Keywords:** human rights; limitations; public interests; private interests; legality; international law; European Convention; case law; state will; property; constitution; public interests.

♦ **Abdullayev Mehdi Kamal oglu** - Doctor of Laws, Professor of Law Department of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan (Azerbaijan). E-mail: abdullayev@rambler.ru

İnsan hüquqlarının müxtəlif istiqamətlərdə təsnifatı aparılsa da, bu hüquqlar ayrılmazdır, bir-birini tamamlayır, yalnız birlikdə götürüldükdə onların məzmunu açılır. İnsan hüquqları cəmiyyətin həyat şəraitinin daimi dəyişməsi nəzərə alınmaqla, insanın sosial və təbii mahiyyəti əsasında meydana gəlir və inkişaf edir, obyektiv olaraq təşəkkül tapıb, dövlətin həmin hüquqları tanımasından asılı olmurlar. Təbii vasitələr kimi ayrılmaz və bölünməz xarakterə malik olmaqla, onun məzmununun müəyyən ifadə forması hüququn zəruri hissəsi kimi çıxış edir və yüksək sosial dəyər hesab olunurlar.

Müasir dövrdə beynəlxalq və milli-hüquqi tənzimetmənin mərkəzi obyekti hesab olunan insan hüquqları sivilizasiyanın əsas insani dəyərləri sırasına aiddir. Hüquqi baxımdan insan hüquqları istənilən müasir cəmiyyətdə şəxsin hüquqi vəziyyəti üçün xarakterik olan hüquqlardır. Müxtəlif cəmiyyətlər insan hüquqlarının təmin edilməsi üçün müxtəlif sosial imkanlara malikdirlər[1, s. 142].

İnsan hüquq və azadlıqlarının məhdudlaşdırılması, onun qüvvədə olma hüdudlarının müəyyən olunması istənilən dövlətin ən mühüm problemlərindən biridir. Onu həll edən qanunverici beynəlxalq hüquq və konstitusiya normalarını əldə rəhbər tutmalıdır. Hüquqlardan istifadə olunma insanın məsuliyyəti, azadlığın ölçü və hüdudları ilə müəyyənləşdirilmiş, hüquqla təyin edilmiş mümkün məhdudiyyətlərlə, humanizm, həmrəylik və əxlaq prinsipləri ilə əlaqələndirilmişdir.

Ümumiyyətlə, insan hüquq və azadlıqlarının məhdudlaşdırılması həm beynəlxalq, həm də dövlətdaxili hüquqi əsaslara malikdir. İlk növbədə, bu məsələyə beynəlxalq hüquq normalarında hansı səviyyədə yanaşılmasına diqqət yetirək.

İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 29-cu maddəsində belə ifadə edilmişdir: hər kəs öz hüquq və azadlıqlarını həyata keçirərkən yalnız o məhdudiyyətlərə məruz qala bilər ki, onlar müstəna olaraq, başqalarının hüquq və azadlıqlarının lazımi qaydada tanınması və onlara hörmət edilməsinin təmin

edilməsi və demokratik cəmiyyətdə əxlaq qaydalarının, ictimai asayişin və ümumi rifahın ədalətli tələblərinin ödənilməsi naminə qanunla müəyyən edilmişdir" [7, s. 212].

Mülki və siyasi hüquqlar haqqında 1966-cı il tarixli Beynəlxalq Paktın 19-cu maddəsinin 3-cü bəndində qeyd olunur ki, bu hüquqlardan istifadə edilməsi insan üzərinə xüsusi vəzifə və məsuliyyət qoyur [6, s. 627].

Bu və ya digər hüquqların həyata keçirilməsində İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası ilə bir sıra məhdudiyyətlər də nəzərdə tutulmuşdur. Məsələn, fikir, vicdan və din azadlığının həyata keçirilməsi ilə bağlı Konvensiyanın 9-cu maddəsinin 2-ci bəndində qeyd edilir ki, öz dininə və baxışlarına etiqad etmək azadlığı yalnız ictimai asayiş maraqları naminə, ictimai qaydanı, sağlamlığı yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan məhdudiyyətlərə məruz qala bilər [8, s. 552]. Bu və ya digər hüquqlar barəsində məhdudlaşdırma Konvensiyanın digər maddələrində də nəzərdə tutulmuşdur.

AR qanunvericiliyinə əsasən şəxsiyyətin hüquq və azadlığının məhdudlaşdırılmasına yol verən qanunverici orqan onların tətbiq edilmə qaydası, hədləri və əsaslarını tənzimləyir. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin 3-cü hissəsində qeyd edilir ki, müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən, insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının öhdəliklərini nəzərə almaq şərtilə, qismən və ya müvəqqəti məhdudlaşdırıla bilər [9].

Bütün bunlarla yanaşı, həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilməlidir. Bütün bunlara baxmayaraq, 25-ci maddənin 3-cü hissəsinə əsasən, insan və vətəndaş hüquq və

azadlıqlarının irqi, etnik, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətinə görə məhdudlaşdırması qadağan edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin 2-ci bəndində qeyd edilir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. Hər kəsin hüquq və azadlıqları bu Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. Eyni zamanda, həmin maddənin 9-cu bəndində göstərilir ki, hər kəs qanunla qadağan olunmayan hərəkətləri edə bilər və heç kəs qanunla nəzərdə tutulmayan hərəkətləri etməyə məcbur edilə bilməz.

Göründüyü kimi, insan hüquqlarının məhdudlaşdırılmasına həm beynəlxalq, həm də milli qanunvericilik icazə verir. Lakin istənilən halda hüquqların, xüsusilə də mülki hüquqların məhdudlaşdırılması zamanı cəmiyyətin (publik) və şəxsiyyətin (xüsusi) maraqları arasında tarazlıq gözlənilməlidir. Bu qaydanın daha aydın şəkildə izahı üçün ilm öncə, “maraq” anlayışına aydınlıq gətirilməlidir.

Dövlətin maraqlarını qoruyan və onların reallaşdırılmasını təmin edən hüquq, publik hüquqdur, ayrıca şəxslərin maraqlarını qoruyan hüquq isə xüsusi hüquqdur. Maraqların prinsipial fərqi bu yanaşmanın əsasını təşkil edir, hüquq isə öz növbəsində onların təmin olunmasına yönəlmişdir. Etiraf etmək lazımdır ki, maraqların xarakteri, sözsüz ki, nəzərə alınmalıdır və ictimai münasibətlərin hüquqi tənzimlənməsinin müəyyən edilməsi vaxtı qanunverici tərəfindən nəzərə alınır. Bu əsnada əsas məqam ondan ibarətdir ki, ictimai maraqlar nəzərə alınmaqla xüsusi maraqların çevrəsini cızan sərhəddin harda yerləşməsini düzgün müəyyən edilsin.

Xüsusi və publik maraqlar hüquq aləmində o qədər qarışmış və bir-birindən asılı hala düşmüşdür ki, hüquq aləmində onları bir-birindən ayırmaq mümkün deyil, həmçinin xüsusi və publik maraqları bir-birlərinə zidd şəkildə fərqləndirməkdə mümkün deyil. Mülkiyyəti və mülki müqavilələri nizama salan hüquq normaları xüsusi hüquqa aid edilir, bununla belə bu hüququn məqsədi

nəinki xüsusi, həm də publik maraqların təmin edilməsidir. Digər tərəfdən, şəxsi evin toxunulmazlığını təmin edən publik-hüquqi norma həm dövlətin, həm də şəxsin mənafeyini nəzərə almalıdır.

Professor Y.A.Tixomirov hüquq münasibətlərində subyektlərin vəziyyətinin fərqi nəzəriyyəsini dəstəkləyərək, yazır ki: "publik-hüquqi fəaliyyətinin fərqləndirici xüsusiyyətlərindən biri odur ki, orada hakimiyyət səlahiyyətlərinə malik subyektlər iştirak edir. Təşkilati təsirin istənilən növü, hətta hakimiyyətin, idarənin və ya özünüidarənin fəaliyyəti də daxil olmaqla, "tabeçilik" münasibətləriylə bağlıdır. Əlbəttə ki, bu, publik-hüquqi münasibətlərinin kifayət qədər abstrakt sxemidir, amma bu sxem onların mənasını və təbiətini dəqiq ifadə edir. Hökmranlıq, əmretmə, həmişə bildirir ki, münasibətlərin bir tərəfi real şəkildə və zəruri çərçivələrdə başqa tərəfin davranışını təmin etmək vəziyyətindədir [4, s. 135].

"Maraq" kateqoriyası — əsas sosioloji kateqoriyalardan biridir, hansının ki köməyilə insanların hərəkətləri və obyektiv qanunauyğunluqları arasında əlaqə müəyyən edilir. Məhz maraqlar subyektin fəaliyyət istiqamətini müəyyən edir, onun hərəkətlərinin və sosial davranışının motivlərini formalaşdırır. subyekti tərəfindən davranışın bu və ya digər variantının seçimini müəyyən edən amillərin mürəkkəb sistemində ehtiyaclar və maraqlar ən əhəmiyyətliləridir. Buna görə də, bizim fikrimizcə, “maraq kateqoriyası ictimai və fərdi hərəkətlərin real səbəblərinin işarəsi üçün sosial fikirin tarixində formalaşmışdır” deyən alimlər haqlıdır [3, s. 8].

Artıq qeyd etdiyimiz kimi, hüquqda maraq onun ən əhəmiyyətli hüquq yaradan və hüquq realizə edən amili kimi çıxış edir. Publik maraq bilavasitə dövlət iradəsində özünü büruzə verir. Vurğulamaq əhəmiyyətlidir ki, dərk edilmiş ictimai maraq dövlətin fəaliyyətinin hədəfidir. Maraq, tanınan ictimai ehtiyacların təmin olunmasına cəhd qismində hüquqi vasitə ilə ifadə edilir. Onların doğurduğu hüquq motivlər, hüquqi tələblər, təkliflər hüquqi ifadəsini məhz dövlət iradəsi vasitəsi ilə

tapır. Hüquqla obyektivləşdirilmiş maraq hüquq normalarının məzmununu və onlara məxsus olan hamı üçün məcburilik xarakterini ilkin olaraq müəyyən edir.

Sözün ciddi mənasında ictimai maraqlar dedikdə, bu, bir növ şəxsi, qrup maraqlarının tarazlaşdırılmasına xidmət edən ümumi maraqlardır. Bir qədər də geniş anlamda desək, publik maraqların təmin olunması mütləqdir, belə olmadıqda, bir tərəfdən, şəxsi maraqların reallaşdırılması mümkün olmur, digər tərəfdən isə təşkilatların, dövlətin, millətin, sosial təbəqələrin, nəhayət, bütovlükdə cəmiyyətin bütövlüyü, sabitliyi və normal inkişafını təmin etmək mümkün olmur. Bu — dövlətin dəstəyinə və hüquqi müdafiəsinə malik olan rəsmən tanınmış maraqlardır. Beləliklə, ictimai maraq dövlət tərəfindən tanınan və hüquqla təmin edilmiş sosial ümumiliyin marağıdır, hansının ki, təmin olunması onun mövcudluğunun və inkişafının zəmanəti kimi xidmət edir.

Beləcə, İctimai maraq həm publik, həm də xüsusi hüququn sahələrində təsbit oluna bilər. Bizim fikrimizcə, Müəyyən bir şəxsin maraqlarının təmin olunmasının hüdudlarının qurulması üçün əsas meyar kimi başqa şəxslərin, həmçinin ictimai və dövlətin maraqları çıxış edir. Qeyd edilənləri nəzərə alaraq, nəticə çıxarmaq olar ki, institusion normativ tənzimçi kimi hüquq, maraqların uyğunlaşdırılmasının vasitəsi kimi də çıxış edir. Təsadüfi deyil ki, hüququn hədəfi cəmiyyətdə maraqların tarazlaşdırılmasından, onların arasında kompromisin tapılmasından ibarətdir.

İnsan hüquqlarının, əsasən də mülki hüquqların məhdudlaşdırılması zamanı publik və xüsusi maraqların nəzərə alınması məsələsində fikrimizcə, İnsan hüquqları üzrə Avropa Konvensiyasının müddəaları və Avropa Məhkəməsi qərarlarındakı hüquqi mövqedən faydalanmaq daha məqsədəmüvafiq hesab olunur. İnsan hüquqlarının müdafiəsi sferasında bir çox universal və regional mexanizmlər mövcuddur, lakin hüquqların məhdudlaşdırılması zamanı maraqların nəzərə alınması məsələsində Avropa Məhkəməsinin təcrübəsi daha zəngin və effektivdir.

Avropa Məhkəməsi tərəfindən mülkiyyət hüququnun məhdudlaşdırılması ilə bağlı işlərə baxılarkən həmin məhdudiyyətlərin tətbiq edilməsi üzrə konkret meyarlar işlənib hazırlanmışdır. Öz fəaliyyətində Avropa Məhkəməsi ardıcıl və sistemli şəkildə həmin prinsiplərə söykənir, həmin prinsiplərdən demək olar ki, əksər qərarlarda istifadə edilir [2, s. 5]. Ardıcıllıqla mülkiyyətçilərin iqtisadi maraqlarının müdafiəsinə yönəlmiş istiqamət götürən Avropa Məhkəməsi dövlət hakimiyyəti orqanlarının onların hüquqi azadlığı sferasına müdaxiləsindən qurunması üzrə meyarlar işləyib hazırlanmışdır [5, s. 227-228]. Bu meyarlar, mülkiyyət hüququna tətbiq edilən məhdudiyyətlərin qiymətləndirilməsi zamanı istifadə edilə bilər.

Həmin meyarlar Avropa Məhkəməsinin müvafiq məsələ ilə bağlı qəbul etdiyi qərarlarında öz əksini tapır. Avropa Konvensiyasına 1 saylı Protokolun 1-ci maddəsinə və Avropa Məhkəməsinin presedent təcrübəsinə əsaslanaraq mülkiyyət hüququna müdaxilənin yolverilən olması üçün növbəti standartlar müəyyən edilmişdir: qanunçuluq; cəmiyyətin maraqlarının müdafiəsi və proporsionallıq.

Avropa Məhkəməsi "cəmiyyətin maraqları" ifadəsinə aydınlıq gətirməyə cəhd göstərmir, Avropa Məhkəməsi hesab edir ki, bu iştirakçı-dövlətlərin daxili işidir, belə ki, hər bir dövlətin özünəməxsus cəmiyyəti və xüsusiyyətləri var, yəni bir cəmiyyət üçün xarakter əlamət digəri üçün neqativ nəticələrə gətirə bilər. Bu və ya digər iştirakçı-dövlətin cəmiyyətlə bağlı məsələlərin həllində milli hüquq və maraqlar daha effektiv rol oynayır. Avropa Məhkəməsi müvafiq məsələnin həllində dövlətdaxili orqanın hərəkət edəcəyi ümumi standartları və mexanizmləri müəyyən etməyə çalışır.

Azərbaycanda mülkiyyətin müdafiəsi, xüsusilə də mülkiyyətin məhdudlaşdırılması ilə bağlı Avropa Konvensiyası standartları AR Mülki Məcəlləsində, AR Cinayət Prosessual Məcəlləsində, AR Vergi Məcəlləsində, AR Torpaq Məcəlləsində və digər qanunvericilik aktlarında öz əksini tapmışdır. AR

qanunvericiliyinə münasibətdə "müsadirə", "alınma" kimi ifadələrdən istifadə edilir.

Azərbaycan qanunvericiliyində mülkiyyətdən məhrumetmə əvəzinə əsasən mülkiyyətin "alınması" ifadəsindən istifadə olunur. Bu ifadə həm məcəllələrdə, həmçinin mülki sferada digər qanunvericilik aktlarında da öz təsbitini tapmışdır. Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında AR Qanununda "alınma" ifadəsinə belə anlayış verilir: dövlət ehtiyacları üçün bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq üzərində mülkiyyət, istifadə və icarə hüquqlarına, bu torpaqdan istifadəyə dair müəyyən edilmiş yüklülüklər (məhdudiyyətlər) də daxil olmaqla xitam verilməsi yolu ilə həmin torpağın (onun müəyyən hissəsinin) mülkiyyətçidən könüllü və ya məcburi qaydada əvəzi ödənilməklə dövlət tərəfindən satın alınması, həmçinin istifadədə və icarədə olan dövlət torpaqlarının müvafiq kompensasiya ödənilməklə istifadəçidən və ya icarəçidən geri alınması [10].

Mülkiyyətdən məhrumetmə zamanı Avropa Konvensiyasının əsas tələbləri qanuni əsas (yəni qərar və ya akt), ictimai maraqlar və ədalətli kompensasiyadır. Şəxsin mülkiyyətindən məhrum edilməsi üçün qanuni qərarın olması ilə bağlı norma ilk növbədə AR Konstitusiyasında təsbit edilmişdir. Belə ki, AR Konstitusiyasına əsasən heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz (md. 29.4). Adekvat normalar Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında AR Qanununda da müəyyən edilmişdir. Həmin Qanunun 9-cu maddəsinə əsasən torpağın alınmasını zəruri edən dövlət ehtiyacının mövcudluğu müvafiq icra hakimiyyəti orqanının qərarı ilə müəyyən edilir.

Mülkiyyətdən məhrumetmə məsələsində Avropa Konvensiyası baxımından növbəti tələb ictimai maraqlar və ya cəmiyyətin maraqlarıdır. Bu məsələdə, Avropa Məhkəməsi dövlətdaxili qanunvericiliyi geniş səlahiyyətlər verdiyindən müvafiq termin və ifadələrin adları da hər bir dövlətdə fərqli ola bilər, məsələn, Azərbaycanda bu məsələdə dövlətin ehtiyacları ifadəsindən istifadə edilir. Bu

ifadədən AR Konstitusiyasının 29.4-cü maddəsində, AR Mülki Məcəlləsinin 157.9-cu maddəsində, AR Torpaq Məcəlləsinin 70-ci maddəsi, Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında AR Qanununun müxtəlif maddələri və digər qanunvericilik aktlarında təsbit edilmişdir.

Adından da göründüyü kimi dövlət ehtiyacları ilə bağlı konkret məsələlər daha ətraflı şəkildə Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında AR Qanununda təsbit edilmişdir. Dövlətin ehtiyacı yarandıqda mülkiyyət onun dəyəri qabaqcadan ədalətli şəkildə ödənilməklə özgəninkiləşdirilə, yəni dövlət maraqları üçün alına bilər. Dövlət ehtiyacı qanunvericilikdə abstrakt anlayış kimi verilməyib. Bu ehtiyacların adları konkret olaraq göstərilib.

Azərbaycan qanunvericiliyində mülkiyyətdən məhrumetmə məsələlərində dövlət ehtiyacları ilə yanaşı, həm ölkənin əsas qanununda, həmçinin Avropa Konvensiyası standartlarında formalaşmış “sosial ədalət” və “torpaqlardan səmərəli istifadətəsi” kimi prinsiplər rəhbər tutulur.

Mülkiyyətdən məhrumetmənin digər bir növü müsadirədir. Lakin müsadiər zamanı kompensasiya nəzərdə tutulmadığıdan və əsasən də cinayət işləri üçün xarakterikdir. Mülki qanunvericiliyə görə isə mülkiyyətçidən əmlakın, qanunda nəzərdə tutulmuş hallarda törədilmiş cinayətə görə sanksiya kimi məhkəmənin hökmü ilə əvəzsiz alına bilməsi müsadirə hesab olunur.

Avropa Konvensiyasının mülkiyyətdən məhrumetmə məsələsində əsas tələblərindən biri ədalətli kompensasiyanın ödənilməsidir, yalnız bu halda ümumi və xüsusi maraqlar arasındakı tarazlığı qoruyub saxlamaq mümkün ola bilər. Kompensasiyanın ödənilməsi məsələləri üzrə Avropa Məhkəməsinin presedent təcrübəsini təhlili onu deməyə əsas verir ki, Avropa Məhkəməsi hər bir iştirakçı-ölkənin hüquq sisteminin özəlliklərini nəzərə alaraq kompensasiyanın müəyyən edilməsi və ödənilməsi ilə bağlı konkret məsələlərdə və mexanizmlərin müəyyən edilməsində dövlətdaxili qanunvericiliyə yol verir. Avropa Məhkəməsi ədalətli

kompensasiya məsələsində, xüsusilə də kompensasiyanın müəyyən edilməsində yalnız ümumi qayda və prinsiplər hazırlamışdır.

Azərbaycan qanunvericiliyində və hüquq tətəbiqi praktikasında ədalətli kompensasiyanın ödənilməsi məsələsində indiyədək ciddi problemlər yaşanmamışdır. Bu məsələ milli qanunvericiliyimizdə Avropa Konvensiyası standartları nəzərə alınmaqla ətraflı şəkildə təsbit edilmişdir. İlk öncə qeyd edək ki, AR Konstitusiyasında bu məsələ öz əksini tapmışdır. Ölkənin əsas qanununda qeyd edilir ki, mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər (md. 29.4).

Ədalətli kompensasiya ilə bağlı konkret məsələlər Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında AR Qanununda ətraflı şəkildə müəyyən edilmişdir. Qanunda kompensasiyaya anlayış verilir və qeyd edilir ki, kompensasiya — bu Qanuna əsasən torpaqların alınması və ya torpağa dair hüquqları ilə bağlı alınmanın təsirinə məruz qalan şəxslərə verilən, pul, əmlak və ya digər formada ifadə olunan əvəzdir.

Beləliklə, ölkəmizdə mülki hüquqların məhdudlaşdırılması zamanı publik və xüsusi maraqların nəzərə alınması zamanı əsasən Avropa Konvensiyası və Məhkəməsi praktikasına müraciət olunur. Avropa standartları nöqtey-nəzərində bu məsələdə tarazlığın qorunması üçün əsas meyar ədalətli kompensasiyanın ödənilməsidir. ümumi və xüsusi maraqlar arasındakı tarzlığın qurunması probleminin həlli istiqamətində Avropa Məhkəməsi növbəti meyarları əsas götürür: kompensasiyanın həcmi və  ödənilməsi qaydası. Avropa Məhkəməsinin presedent praktikasına müvafiq olaraq, kompensasiyanın həcmi şəxsdən alınan əmlakın dəyərinə uyğun olmalıdır. Kompensasiyanın məbləği onun tam bazar qiymətinə əsaslanmalıdır.

## References

1. Aliyev A.I. Insan huquqlari. Derslik [Human rights. Textbook]. Baku, 2013, 506 p.

2. Zarshchikov A.V. Ogranichenie prava sobstvennosti na zamlyu v interesakh publichnykh obrazovaniyi: pravovoyi podkhod Evropeyskogog suda po pravam cheloveka [Limitation of ownership of land in the interests of public entities: legal approach of the European Court of Human Rights]. Elektronnyyi nauchnyyi zhurnal "Nauka. Obshchestvo. Gosudarstvo" ["Science. Society. State" Electronic scientific journal]. No. 1 (9). 2015, pp. 1-8.

3. Zdravomyslov A.G. Problema interesa v sotsiologicheskoyi teorii [Problem of interest in sociological theory]. Leningrad, 1964, 74 p.

4. Tikhomirov Yu.A. Publichnoe pravo. Uchebnik [Public law. Textbook]. Moscow, 1995, 496 p.

5. Turitsin A.V. Printsipy Evropeyiskogo Suda po pravam cheloveka v problem ogranicheniya prav sobstvennosti na zemel'nye uchastki sel'skokhozyayistvennogo naznacheniya. Obshchestvo i pravo [principles of European Court of Human Rights in the problem of limitation of the rights to property on a land plot]. Society and Law. No. 1(33), 2011, pp. 227-232.

6. Conte Alex. Human Rights in the Prevention and Punishment of Terrorism: Commonwealth Approaches: The United Kingdom, Canada, Australia and New Zealand. London: New York: Springer Science & Business Media, 2010, 845 p.

7. Finnis John. Natural Law and Natural Rights. Second edition, Oxford: Oxford University Press, 2011, 494 p.

8. Lawson H. Edward, Mary Lou Bertucci, David P. Forsythe. Encyclopedia of Human Rights. Second edition. Taylor & Francis, 1996, 1715 p.

9. http://azerbaijan.az/portal/General/Constitution/constitution_01_a.html

10. http://e-qanun.az/framework/19613